Futbol kralının xatirəsi

# “Mənim həyatım və gözəl oyun”

***Beynəlxalq Futbol Federasiyası (FİFA) milli assosiasiyalara müraciətində dekabrın axırından bu həftənin sonunadək Pelenin xatirəsinə bütün görüşlərə bir dəqiqəlik sükutla başlamağa çağırış edib. Biz də yeganə üççat dünya çempionunu xatırlamaqda davam edək. Özünün otuz dörd il əvvəl ingilis dilindən rus dilinə tərcümə edilmiş " Mənim həyatım və gözəl oyun" kitabının köməyi ilə. Edson Arantis du Nasimentu və ya sadəcə, Pelenin kitabı 1989-cu ildə 100 min nüsxə tirajla Moskvanın "Planeta" nəşriyyatında çap olunmuşdur.***

***Futbol kralı çox maraqlı, onun öz adına, heyrətamiz oyununa, parlaq ustalığına layiq kitabında uşaqlığı, futbol karyerası haqqında danışmış, daha çox yadında qalmış oyunları xatırlamış, futbolun gələcək inkişaf yolları barədə fikrini bildirmişdir.***

***Keçmiş SSRİ çempionatlarında Moskvanın "Spartak" komandasının heyətində Bakıda "Neftçi"yə qarşı da oynamış məşhur qapıçı, sonralar isə şərhçilikdə də məşhurlaşan Əməkdar idman ustası Vladimir Maslaçenko kitabdakı "Futbol kralı" başlıqlı qeydlərini bu cümlə ilə yekunlaşdırmışdır: "Bir çox braziliyalı bu avtobioqrafik kitabı oxuya bilmək üçün savad öyrənməyə başlayıb".***

***Pelenin dahiliyi qarşısında bundan artıq nəsə demək, yazmaq çətindir.***

***Ancaq bir görün, kitabın giriş hissəsinin müəllifi Robert L. Fiş nə yazıb: Pelenin adı Avropa şəhərlərində də, hər iki Amerikada da, Kiçik Asiyanın uzaq kəndlərində də, Afrikanın ucqar obalarında da eyni dərəcədə məşhurdur. Heç bir idmançı Pelenin nail olduğu tamaşaçı auditoriyasından daha çoxsaylı auditoriya ilə öyünə bilməz. Peleni hər hansı bir başqa müasirimizdən daha yaxşı tanıyırlar. Onun şəklini ən populyar kino ulduzlarının və dövlət xadimlərinin fotolarından çox çəkmişlər. O, səksən səkkiz ölkədə olmuş, on kral, beş imperator, yetmiş prezidentlə və iki Roma papası da daxil olmaqla, qırx nəfər digər dövlət başçısı ilə görüşmüşdür. Fəxri vətəndaşı adına layiq gördüyü şəhər və ölkələrin sayına görə bəşər tarixində ona bərabər insan yoxdur.***

***Kitabda "Mən 1940-cı il oktyabrın 23-nə keçən gecə anadan olmuşam" deyib, 2022-ci ilin finişində və ya 2023-ün astanasında 82 yaşında həyatla vidalaşan Pele təkcə vətəni yeganə beşqat dünya çempionu Braziliyada deyil, planetin istisnasız olaraq, hər yerində milyardlarla insanın qəlbini riqqətə gətirən ən böyük futbolçu idi. Xeyirxah futbol aləmi onu heç vaxt unutmayacaq, Pele dünya durduqca yaşayacaq.***




## Kitabdan bəzi məqamlar

Pele futbolu ən yüksək sənət zirvələrinə qaldırıb.

***

Pelenin ilk dəfə iştirak etdiyi 1958-ci il dünya çempionatından dərhal sonra ondan soruşublar ki, ustalığın artıbmı?

Cavab belə olub: "Mən meydançanı daha yaxşı görməyə başlamışam ".

***

Pele bir peşəkar futbolçu kimi pul qazanmaq üçün oynamağı bacarırdı. O, hamıdan yaxşı oynayır və daha çox qazanırdı. Lakin pul heç vaxt onun üçün həvəsləndirici səbəb deyildi. O, öz maliyyə maraqlarını qoruya bilirdi, amma meydançaya çıxarkən yalnız bir Allaha – futbola xidmət edirdi.

***

Peleni prezidentlər və krallar, Roma papası və baş nazirlər qəbul edirdilər, o isə təvazökar bir gənc olaraq qalır və özündən çox, heyrətamiz dərəcədə demokratik, beynəlmiləl idman növü olan futbolu təsdiq edirdi.

***

Mən bəzən doğum səhnəmi təsəvvürümə gətirmək istəyirdim. Gənc anam Dona Seleste parlaq gözləri ilə gözüm önünə gəlirdi ( biz bu yazını çapa hazırlayarkən məlum oldu ki, Selestenin 100 yaşı var və Pelenin vəfat etdiyini ona bildirmirlər – O.B). O, arıq, cılız, qara körpəni fəxrlə əlində tutur. Xoşbəxtlikdən işıq saçan nənəm Ambrozira da yanımızdadır. Əmim Jorji deyir: "Şübhəsiz, onun dərisinin rəngi kifayət qədər qaradır ". Anam kimi gənc olan atam mənə, ilk körpəsinə yaxşı baxmaq üçün irəli əyilir, sonra isə ayağımı yüngülcə sıxıb inamla deyir: " Hə, ondan yaxşı futbolçu çıxacaq, ayaqları möhkəmdir".

***

Biz 1958-ci ildə İsveçdən dünya çempionu kimi qayıtdıqdan sonra Dona Seleste gözlərini silib danışmağa başladı:

– Bir görəydin! Bizim evə o qədər adam gəlmiş, o qədər camaat toplaşmışdı ki...! Əvvəllər onlar şikayətlənirdilər ki, sən fonarları sındırır, dalaşır, kobudluq edirsən. İndi isə hamı, hətta məktəb müəllimlərin and içirlər ki, sənin istedadına heç vaxt şübhə etməyiblər. Hamı səninlə elə fəxr edir ki!..

## Bizim qeydlər

Ötən il noyabrın 20-də, Seleste Arantesin 100 yaşının tamam olduğu gün Pele sosial şəbəkələrdə anasına məhəbbətini ifadə edən paylaşım etmişdi: "Bu gün biz Selestanın 100 yaşını qeyd edirik. Uşaq yaşlarından o mənə məhəbbəti və əmin-amanlığı qiymətləndirməyi öyrədib. Oğlu olduğum üçün ona minnətdar olmaqdan ötrü çoxlu səbəb var. Mən bu günü böyük həyəcanla qeyd edirəm. Ana, yanımda olduğun hər gün üçün sağ ol ".

Oxuduqlarınız 239 səhifədən ibarət kitabdan yalnız bəzi məqamlardır. Kitabdan daha böyük zövq almaq – yeganə üççat dünya çempionunun 1958-ci ildə İsveçdə, 62-də Cilidə və 70-də Meksikada keçirilən dünya çempionatlarındakı oyunlar, vurduğu qollar, qazandığı qızıl medallar və alqışlar haqqında tam təsəvvür almaq üçün kitabı gərək hər kəs özü oxusun.

Pele ilə Azərbaycan futbolunu birbaşa bağlayan bir oyunu da statistikanın köməyi ilə qeyd edək. 21 noyabr 1965-ci il. Rio-de-Janeyro. "Marakana" stadionu. 132 min tamaşaçı. Braziliya–SSRİ. Yoldaşlıq görüşü – 2:2.

Braziliyalılardan toplardan birini Pele vurmuş, SSRİ komandasında isə bir qolun müəllifi Azərbaycan futbolunun əfsanəsi Anatoli Banişevski olmuşdur.

Başqa bir məqam da var. Meksikada dünya çempionatı – 70-in Braziliya–İtaliya final görüşündə (4:1) dördüncü və çempionatda sonuncu topu braziliyalıların kapitanı, 2000-ci illərin əvvəlində Azərbaycan millisinin baş məşqçisi olmuş Karlos Alberto Torres vurmuşdur.

Sonda Pelenin "Mənim həyatım və gözəl oyun" kitabını özünün yazdığı kimi "bu böyük oyunu gözəl oyun edən hər kəsə həsr etdiyini" də diqqətə çatdıraq...

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***